**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№384/5** **23 dekabr 2025-ci il**

**2025-ci il üzrə Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) edilmiş son dəyişikliklərin Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən tərcüməsi, redaktəsi və nəşri barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 3.1-ci "Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri" bəndinin icrasını təmin etmək məqsədilə Beynəlxalq Mühasiblər Federasiyasının üzvlük tələblərinə uyğun olaraq Aparatın rəhbəri Q.Bayramov və Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış 2025-ci il üzrə Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) edilmiş son dəyişikliklərin Auditorlar Palatası tərəfindən tərcüməsi, redaktəsi və nəşri barədə hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2025-ci il üzrə Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) edilmiş son dəyişikliklərin Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən tərcüməsi, redaktəsi və nəşri barədə hesabat bəyənilsin (əlavə olunur).

2. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) və onun müvafiq Şuraları tərəfindən Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) edilmiş son dəyişikliklərin tərcüməsinin, redaktəsinin, nəşrinin və onlara dair şərhlərin hazırlanmasının vaxtında və keyfiyyətlə icrasını təmin etsinlər.

3. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri üçün Beynəlxalq Mühasiblər Federasiyasından (IFAC) müvafiq qaydada icazələrin alınmasını təmin etsin.

4. Audit sistemində icra intizamının və daxili nəzarət şöbəsinin müdiri Z.Almazova tapşırılsın ki, mütəmadi olaraq Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərə dair şərhlər hazırlandıqdan sonra üç gün müddətində şərhlərin mətnlərinin auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsini və Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsin.

5. Bu qərarın və hesabatın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** Əsli ilə düzdür **Vahid Novruzov**

Azərbaycan Respublikası Auditorlar Palatası / Chamber of Auditors of Azerbaijan Republic — Ümumi şöbə